**Təsdiq edirəm:**
Biznes mühiti və beynəlxalq reytinqlər
üzrə Komissiyanın sədri, Azərbaycan
Respublikası Baş nazirinin birinci
müavini Yaqub Eyyubov

________________

30.09.2022-ci il

## Dünya Bankı Qrupunun “Əlverişli Biznes Mühiti” layihəsinin “Kommunal xidmətlərə (internetə) qoşulma” indikatoru ilə bağlı müvafiq sahədə təkmilləşmələrin həyata keçirilməsinə dair 2022-2023-cü illər üzrə Yol Xəritəsi

| Sıra №-si | Alt komponentlərin tələbləri | Görüləcək tədbirlər | Son icra müddəti | İcraçı qurumlar | Məsul şəxslər |
|---|---|---|---|---|---|
| **1. Kommunal xidmət qaydalarının keyfiyyəti** | | | | | |
| **1.1.** | **İnternetə qoşulma üzrə normativ hüquqi baza** | | | | |
| 1.1.1. | İnternet təminatına nəzarət edən tənzimləyici orqanın funksiyalarının, o cümlədən tariflərin müəyyən edilməsində rolu, xidmət keyfiyyətinin hədəfləri, xidmət təminatının etibarlılığının monitorinqi, habelə şəffaflıq və müstəqillik kimi əsas xüsusiyyətlərinin aydın müəyyən edilməsi | 1. Bu sahədə yeni tənzimləyici qurumun nizamnaməsinin təsdiq edilməsi və onun fəaliyyətə başlaması üçün zəruri tədbirlərin görülməsi | 31.12.2022 | Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi | Ceyhun Hüseynzadə, Əlyar Təmirov |
| | | 2. Aidiyyəti qurum tərəfindən müvafiq qaydada monitorinqlərin keçirilməsi, fəaliyyətinin şəffaflığının və müstəqilliyinin təmin olunması kimi tələbləri nəzərdə tutan funksiyaların yerinə yetirilməsinə dair yeni qayda və təlimatların hazırlanması | 01.07.2023 | Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, Ədliyyə Nazirliyi, İqtisadiyyat Nazirliyi | |
| 1.1.2. | İnternet xidmətlərinin keyfiyyəti üzrə fəaliyyət hədəflərini müəyyən edən qaydaların (müvafiq hallarda) mövcudluğu | 1. İnternet xidmətlərinin keyfiyyəti üzrə fəaliyyət hədəflərini müəyyən edən müvafiq qaydaların hazırlanması və təsdiq edilməsi üçün aidiyyəti üzrə təqdim olunması | 31.12.2022 | Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, İqtisadiyyat Nazirliyi, Ədliyyə Nazirliyi, Dövlət Statistika Komitəsi | Ceyhun Hüseynzadə, Əlyar Təmirov |
| | | 2. Müvafiq qaydalar təsdiq edildikdən sonra həmin qaydalara uyğun olaraq 2023-cü il üzrə hədəf göstəricilərinin müəyyən edilməsi və aidiyyəti internet səhifələrində yerləşdirilməsi | | | |

| | | | | | |
|---|---|---|---|---|---|
| 1.1.3. | İnternet xidmətlərinin dayanıqlı təminatını təşviq edən ekoloji qaydaların mövcudluğu | İnternet xidmətlərinin davamlı təminatını təşviq edən ekoloji qaydalarla bağlı beynəlxalq ekspertlər cəlb olunmaqla araşdırma və təhlillərin aparılması və təkliflərin hazırlanaraq aidiyyəti üzrə təqdim edilməsi | 01.06.2023 | Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi | Ceyhun Hüseynzadə, Əlyar Təmirov |
| **1.2. Kommunal xidmətlərin (internetin) təhlükəsizliyi** | | | | | |
| 1.2.1. | Şəxsi məlumatların və məxfiliyin qorunmasına yönəlmiş ağlabatan məlumat təhlükəsizliyi tədbirləri ilə bağlı internet xidməti təminatçılarına aşağıdakılar üzrə qoyulan qanuni tələblərin mövcudluğu:<br>- vasitəçinin öhdəliyi;<br>- məlumatların toplanmasına qoyulan məhdudiyyətlər;<br>- kompensasiya mexanizmləri;<br>- digər müvafiq hüquqi tələblər. | “Fərdi məlumatlar haqqında” Azərbaycan Respublikasının yeni qanun layihəsinin təsdiq edilməsi ilə əlaqədar müvafiq tədbirlərin görülməsi | 31.12.2023 | Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, Daxili İşlər Nazirliyi, İqtisadiyyat Nazirliyi, Dövlət Təhlükəsizliyi Xidməti, Ədliyyə Nazirliyi, Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi | Ceyhun Hüseynzadə, Elmin Məmmədov |
| **1.3. Elektron ticarətə imkan yaradan qabaqcıl normativ təcrübələr** | | | | | |
| 1.3.1. | Elektron ticarət üçün təhlükəsiz və etibarlı mühiti təmin edən normativ hüquqi bazanın olub-olmaması:<br>- Elektron ticarətin istifadəçiləri və xidmət təminatçılarının hüquqi müdafiəsinin təmin edilməsi;<br>- Elektron ticarət əməliyyatlarını texniki platforma üzərindən təşviq etmək üçün hüquqi tələblər;<br>- İnformasiya təhlükəsizliyini təmin etmək üçün kibertəhlükəsizlik tələbləri. | Ödəniş xidmətləri və ödəniş sistemləri üzrə qanunvericilik bazasının formalaşdırılması | 2022-2023-cü illər | Mərkəzi Bank, İqtisadiyyat Nazirliyi və digər aidiyyəti dövlət qurumları | Ceyhun Hüseynzadə |
| | | Elektron imza sahəsində ölkə qanunvericiliyinin Avropa İttifaqının eIDAS qaydalarına uyğunlaşdırılması | 01.09.2023 | Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi və digər aidiyyəti dövlət qurumları | Ceyhun Hüseynzadə |
| | | “Elektron ticarət haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının müvafiq qanunu qüvvəyə mindikdən sonra “Elektron ticarət platformaları üçün minimal təhlükəsizlik tələbləri” layihəsinin müvafiq qurumlarla razılaşdırılması və aidiyyəti qaydada təsdiq edilməsi üçün zəruri tədbirlərin görülməsi | Qanun qüvvəyə mindikdən sonra 4 ay ərzində | Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, İqtisadiyyat Nazirliyi və digər aidiyyəti dövlət qurumları | Ceyhun Hüseynzadə |
| 1.3.2. | Elektron ticarət üzrə milli qanunvericiliyin aşağıdakı sənədlər əsasında təqdim olunan tövsiyə və məsləhətlərə uyğunluq səviyyəsi: | SİMA rəqəmsal imza, ASAN İmza və digər imzaların Avropa xidmət/ticarət müqavilələrinə (E-Contract) inteqrasiyasının həyata keçirilməsi | 31.12.2023 | Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi və digər aidiyyəti dövlət qurumları | Ceyhun Hüseynzadə |

| | | | | | |
|---|---|---|---|---|---|
| | - UNCITRAL-ın "Elektron Ticarət", "Elektron şəkildə ötürülə bilən Məlumatlar" və "Elektron İmzalar" üzrə Model Qanunları, habelə "Mübahisələrin onlayn həlli barədə" Texniki Qeydləri;<br>- BMT-nin "Beynəlxalq müqavilələrdə Elektron kommunikasiyalardan istifadə haqqında" Konvensiyası;<br>- İƏİT-in "Elektron ticarət sahəsində istehlakçıların hüquqlarının qorunması haqqında" Tövsiyəsi və İƏİT-in "Məxfiliyin qorunması haqqında" Təlimatları. | | | | |
| **2. Kommunal xidmət göstəriciləri və kommunal xidmətlərin şəffaflığı** | | | | | |
| **2.1. Kommunal xidmətlərin (internet) təchizatının keyfiyyəti, etibarlılığı və dayanıqlılığı üzrə əsas fəaliyyət göstəricilərinin monitorinqi** | | | | | |
| 2.1.1. | Kommunal xidmətlərin (internetin) keyfiyyətini, etibarlılığını və dayanıqlığını qiymətləndirmək üçün əsas fəaliyyət göstəricilərinin (KPI) mövcudluğu<br><br>Əsas fəaliyyət göstəricilərinin ictimaiyyətə açıq olması | 1. Tənzimləyici tərəfindən internet xidmətinin keyfiyyət, etibarlılıq və dayanıqlılıq meyarlarının qiymətləndirilməsi üzrə müvafiq göstəricilərin müəyyən olunması və təsdiq edilməsi<br>2. Tənzimləyici tərəfindən müvafiq müayinə, sorğu, statistik təhlillərin aparılması və nəticələri barədə ictimaiyyətə mütəmadi hesabatların verilməsi | 01.06.2023 | Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, İqtisadiyyat Nazirliyi, Dövlət Statistika Komitəsi | Ceyhun Hüseynzadə, Əlyar Təmirov |
| **2.2. Tariflər və qoşulma tələblərinin şəffaflığı** | | | | | |
| 2.2.1. | İnternet tariflərinin şəffaflığı və onlayn əlçatanlığının təmin edilməsi, habelə tarif dəyişiklikləri barədə qabaqcadan məlumat verilməsi mexanizminin mövcudluğu | "Telekommunikasiya haqqında" Azərbaycan Respublikası Qanununun 13.1-ci maddəsinə əsasən internet telekommunikasiya xidməti göstərən operatorların və provayderlərin Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi tərəfindən uçota alınması mexanizminin hazırlanması və tətbiqi | 01.02.2023 | Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi | Ceyhun Hüseynzadə |
| **2.3. Kommunal xidmətlərin qarşılıqlı fəaliyyəti** | | | | | |
| 2.3.1. | Müxtəlif kommunal xidmət təminatçılarının bütün şəbəkə xətlərini özündə birləşdirən milli infrastruktur məlumat bazası və coğrafi informasiya sisteminin mövcudluğu | 1. Milli infrastruktur məlumatlarının xəritələnməsi üzrə operatorun müəyyən edilməsi və həmin qurum tərəfindən müvafiq iş planının hazırlanması | 31.12.2023 | Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, İqtisadiyyat Nazirliyi, Dövlət Statistika Komitəsi | Ceyhun Hüseynzadə, Əlyar Təmirov |

| | | | | | |
|---|---|---|---|---|---|
| | | 2. Əmlak Məsələləri Dövlət Xidməti ilə birlikdə məkan məlumatlarının abunəçilərin fərdi məlumatları ilə əlaqələndirilməsinin təmin edilməsi | | | |
| | | 3. Milli infrastruktur məlumatlarının xəritələnməsi üzrə zəruri məlumatların xidmət operatoruna təqdim edilməsinə dair məcburi tələblərin müəyyən edilməsi və mövcud normativ-hüquqi sənədlərə müvafiq dəyişikliklərin edilməsi | | | |
| | | 4. Milli infrastruktur məlumatlarının xəritələnməsi üzrə operator və provayderlər tərəfindən məlumatların toplanması, sistemə daxil edilməsi, tələb olunduqda məlumatların yenilənməsi və sair bu kimi prosedurların yerinə yetirilməsi üzrə müvafiq təlimatların hazırlanması və təlimlərin təşkil edilməsi | | | |
| 2.3.2 | İnternet şəbəkəsinə yeni qoşulma üçün tələb olunan sənədlər, mərhələlər, müddət və xərclər barədə məlumatların şəffaflığı və onlayn əlçatanlığının təmin edilməsi<br><br>İnternet şəbəkəsinə yeni qoşulma, provayderlərin və ya internet sürətinin dəyişdirilməsi, müvəqqəti dayandırılması və yenidən aktiv edilməsi üzrə vahid onlayn platforma və ya onlayn sistemin mövcudluğu<br><br>Kommunal xidmətləri qarşılıqlı əlaqələndirən və təsdiqləmə proseslərini sadələşdirən vahid informasiya portalları və vahid pəncərələrin olması<br><br>Kommunal xidmətlərə qoşulma üzrə dövlət xidmətlərinin tam rəqəmsallaşdırılması | İnternet telekommunikasiya xidməti göstərən operatorların və provayderlərin uçotunun aparılması təmin edildikdən sonra növbəti mərhələdə operatorların və provayderlərin uçotu sistemindən əldə olunmuş məlumatlardan istifadə edilməklə istifadəçilər üçün internet xidmətinə qoşulmanı və istifadəni asanlaşdıran və bu Yol Xəritəsinin 2.3.2-ci bəndi üzrə alt komponentlərin tələblərini özündə ehtiva edən vahid informasiya portalının konsepsiya sənədinin hazırlanaraq Komissiyaya təqdim olunması və həmin konsepsiya sənədi əsasında vahid informasiya portalının yaradılması | 31.12.2022 (konsepsiya sənədinin hazırlanması)<br><br>31.12.2023 (portalın yaradılması) | Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi | Ceyhun Hüseynzadə, Əlyar Təmirov, Qəhrəman Kazımov |

| | | | | | |
|---|---|---|---|---|---|
| **3. Kommunal sahədə qaydalar və xidmətlərin həyata keçirilməsinin səmərəliliyi** | | | | | |
| **3.1. və 3.2. İnternet şəbəkəsinə qoşulma üçün vaxt və xərclər** | | | | | |
| 3.1.1. | Kommunal xidmətlərə (internetə) kommersiya məqsədli qoşulmalar üçün tələb olunan prosedurlar<br><br>Kommunal xidmətlərə (internetə) kommersiya məqsədli qoşulmalar üçün tələb olunan prosedurlara sərf olunan vaxtın (günlərlə) ölçülməsi<br><br>Kommunal xidmətlərə (internetə) kommersiya məqsədli qoşulmalar üçün tələb olunan prosedurlara sərf olunan xərcin (rüsumlar və xidmət haqları, digər xərclər) müəyyənləşdirilməsi | 1. 2022-ci ilin ötən dövrü ərzində kommunal xidmətlərə (internetə) yeni qoşulan sahibkarlıq subyektləri arasında sorğu aparılması<br><br>2. Sorğu aparılmaqla hazırda mövcud olan prosedurlar üzrə proseslər xəritəsinin hazırlanması<br><br>3. Sorğu əsasında hazırlanmış proseslər xəritəsi təhlil edilməklə, kommunal xidmətlərə (internetə) kommersiya məqsədli qoşulmalar üçün tələb olunan prosedurların optimallaşdırılması, vaxt və xərclərin minimuma endirilməsi ilə bağlı təkliflərin hazırlanması və müvafiq tədbirlərin görülməsi | 01.01.2023 (sorğuların keçirilməsi)<br><br>01.04.2023 (xəritənin hazırlanması)<br><br>01.08.2023 (təkliflərin hazırlanması) | Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, Dövlət Statistika Komitəsi, (operator və provayderlər cəlb edilməklə) | Ceyhun Hüseynzadə, Qəhrəman Kazımov |
| 3.2.1. | Kommunal xidmətlər (internetə qoşulma) üzrə əlaqəli qurumlar və təşkilatların internet səhifələrində məlumatların əlçatanlığı və şəffaflığı | Operator və provayderlərin internet səhifələrində məlumatların əlçatanlığı və şəffaflığı, xüsusi onlayn xidmətlərin göstərilməsi üzrə real vəziyyətin və internet səhifələrində məlumatların mütəmadi yenilənməsi vəziyyətinin qiymətləndirilməsi | 01.06.2023 | Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, (operator və provayderlər cəlb edilməklə) | Ceyhun Hüseynzadə, Qəhrəman Kazımov |
| **3.3. İnternet xidmətlərinin etibarlılığı** | | | | | |
| 3.3.1. | İnternet xidmətlərində internet bağlantısının yükləmə sürəti və gözləmə müddəti, eləcə də kommunal xidmətlərlə (internetlə) bağlı digər keyfiyyət göstəricilərinin faktiki səviyyəsinin bu sahədə mövcud beynəlxalq standartlara uyğunluğunun müəyyən edilməsi | 1. Aşağı sürətli ADSL tarif planları istifadəçilərinin davamlı olaraq yeni, daha yüksək sürətli tariflərə keçid etməsi üçün həvəsləndirici aksiya və kampaniyaların keçirilməsi<br><br>2. İnternet xidməti üzrə mövcud beynəlxalq standartlara uyğun keyfiyyət göstəricilərinin müəyyən edilməsi<br><br>3. İnternet xidməti üzrə keyfiyyət göstəricilərinin faktiki səviyyəsinin bu sahədə mövcud beynəlxalq standartlara uyğunluğunun monitorinqlər əsasında müəyyən edilməsi | 01.06.2023 | Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, Dövlət Statistika Komitəsi, (operator və provayderlər cəlb edilməklə) | Ceyhun Hüseynzadə, Qəhrəman Kazımov |

| | | | | | |
|---|---|---|---|---|---|
| **3.4. Elektron ticarətlə məşğul olmaq üçün vaxt və xərclər** | | | | | |
| 3.4.1. | Elektron ticarət zamanı domen adlarının əldə olunması, qeydiyyatdan keçirilməsi və qorunmasına (məsələn, rəqəmsal platforma üçün) sərf olunan vaxt və xərcin qiymətləndirilməsi | 1. IDN (internationalized domain names – milli əlifbada mövcud hərflərin istifadəsi mümkün olan domen adları) tətbiqi ilə bağlı mövcud bazar təhlilinin aparılması, beynəlxalq təcrübənin öyrənilməsi və yerli tətbiq mexanizmlərinin hazırlanması, domen adlarının milli inzibatçısı ilə birgə IDN keçid strategiyasının işlənilməsi və icrası | 01.06.2023 | Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi | Ceyhun Hüseynzadə |
| | | 2. IDN tətbiqi ilə bağlı aparılacaq müvafiq işlər çərçivəsində domen adlarının qeydiyyatı ilə bağlı vaxt və xərclərin azaldılması imkanlarının araşdırılması | | | |